# AZƏRBAYCAN VETERANI

AZƏRBAYCAN VETERANLAR TƏŞKİLATI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

10-11 (152-153) 15 avqust 2020-ci il İctimai-siyasi qəzet


## Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı il 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırılması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı il 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırılması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin tibbi göstərişlər üzrə avtomobillə təminatının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 2 878 020 (iki milyon səkkiz yüz yetmiş səkkiz min iyirmi) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev  
Azərbaycan Respublikasının Prezidenti  
Bakı şəhəri, 21 iyul 2020-ci il.



## Azərbaycan Respublikasının Tovuz rayonunu Ermənistan Respublikası Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ermənistan Respublikası Silahlı Qüvvələrinin 2020-ci ilin iyul ayının 12-dən başlayaraq Ermənistan və Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində qəsdən və hədəflənmiş şəkildə yaşayış məntəqələrini iri çaplı silahlardan və ağır artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə ciddi ziyan dəymişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dəymiş ziyanın aradan qaldırılması, zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin sürətlə həyata keçirilməsi məqsədilə qərara alıram:

1. Ermənistan Respublikası Silahlı Qüvvələrinin Azərbaycan Respublikasının Tovuz rayonunu intensiv atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə birlikdə qısa müddətdə təmin edib, bu barədə məlumatları Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1-ci hissəsinə əsasən təqdim edilmiş məlumatlara uyğun olaraq, dəymiş ziyanın aradan qaldırılması, zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin sürətlə həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaiti barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İlham Əliyev  
Azərbaycan Respublikasının Prezidenti  
Bakı şəhəri, 20 iyul 2020-ci il.

## Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,  
Əziz Qardaşım,  
Sizi səmimiyyətlə salamlayıram.

Bu gün Türkiyədə 15 iyul dövlət çevrilişi cəhdinin növbəti ildönümüdür. Bu çevriliş cəhdi Türkiyə dövlətinə qarşı yönəlmiş xain plan idi. Sizin qəhrəmanlığınız və Türkiyə xalqının Sizə olan sevgisi sayəsində qardaş ölkəniz bu çətin sınaqdan daha da güclü çıxmışdır. “Demokratiya və Milli Birlik Günü” xalqınızın öz dövlətçiliyinə və demokratik ənənələrinə sadiqliyinin bariz nümunəsidir.

Mən dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını verən şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirəm.

Türkiyə dövlətinə və xalqına qarşı olan bu xəyanətkar dövlət çevrilişi cəhdini ilk dəqiqələrdən ən qəti şəkildə pisləyən ölkə Azərbaycan olmuşdur. Bununla Azərbaycan xalqı və dövləti qardaş Türkiyənin yanında olduğunu göstərmişdir.

Azərbaycan və Türkiyə “Bir millət, iki dövlət” şüarı əsasında həm sevincli, həm də kədərli günlərdə daim bir-birinə dayaqdırlar.

Biz də bütün məsələlərdə Türkiyənin güclü dəstəyini hiss edirik. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Türkiyə hər zaman Azərbaycanla həmrəy olmuş, bütün beynəlxalq təşkilatlarda ölkəmizin haqlı mövqeyini müdafiə etmişdir.

İyulun 12-də Ermənistan Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində hərbi təxribat törətmişdir. Bu, Ermənistanın Azərbaycana qarşı növbəti xəyanətkar aqressiya aktıdır və bütün məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərindədir. Bu qəfil və xain hücum nəticəsində Azərbaycan Ordusunun hərbçiləri, eyni zamanda, mülki şəxslər həlak olmuş və yaralanmışdır.

Azərbaycan Ordusu bu təxribata layiqli cavab vermişdir. Şəhidlərimizin qisası alınmışdır. Onların qanı yerdə qalmamışdır, bundan sonra da qalmayacaqdır. Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq öz ərazi bütövlüyünü təmin edəcəkdir.

Bu hadisə adi sərhəd toqquşması deyil, Ermənistanın işğalçı siyasətinin davamıdır. Hər zaman olduğu kimi, bu gün də Ermənistan rəhbərliyi öz ikiüzlü və riyakar siyasətinə sadiq qalaraq həm öz ictimaiyyətini, həm də dünya birliyini aldatmağa çalışır. Ölkələrində hökm sürən sosial-iqtisadi problemlərin fonunda Azərbaycanla münaqişəni alovlandırmaqla müəyyən məqsədlərə çatmaq istəyirlər.

Ermənistanın Azərbaycana qarşı hərbi hücumuna ilk reaksiyanı qardaş Türkiyə Respublikası vermişdir. Dünənki çıxışınızda Ermənistanın təxribatları ilə bağlı Türkiyənin qəti mövqeyini bir daha ifadə etdiniz. Azərbaycana göstərdiyiniz dəstəyi xalqımız yüksək qiymətləndirir.

Azərbaycan-Türkiyə strateji müttəfiqliyi regionda sülhün və təhlükəsizliyin təmin olunmasına xidmət edən, əməkdaşlığın inkişafına töhfə verən mühüm amildir. Əminəm ki, birliyimiz və həmrəyliyimiz bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq möhkəmlənəcək və genişlənəcəkdir.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,  
İlham Əliyev  
Azərbaycan Respublikasının Prezidenti  
Bakı şəhəri, 15 iyul 2020-ci il.

# Bakıda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimi keçirilib

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təqdimat mərasimində iştirak ediblər




İyulun 21-də Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təqdimat mərasimində iştirak ediblər.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına və birinci xanıma məlumat verdi ki, dövlət tərəfindən bu binada şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə 62 mənzil verilib. Bu mənzillərin 42-si Qarabağ müharibəsi əlilləri, 20-si isə şəhid ailələri üçün nəzərdə tutulub.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mənzillərdə yaradılan şəraitlə tanış oldular.

Mənzillərin hamısı ikiotaqlıdır. Bu mənzillər də daxil olmaqla indiyədək şəhid ailələrinə və müharibə əlillərinə 8018 mənzil və fərdi ev təqdim olunub. Bu qəbildən olan vətəndaşlarımız təkcə 2019-cu ildə 634 mənzil, 300 fərdi evlə təmin ediliblər. 2020-ci ildə 700 mənzil və 800 fərdi evin verilməsi nəzərdə tutulub. İlin əvvəlindən indiyədək 430 mənzil təqdim olunub.

Diqqətə çatdırılıb ki, 2018-ci ildə 265, 2019-cu ildə 600 müharibə əlili avtomobillə təmin olunub. Bu dəfə təqdim edilən 50 avtomobil də daxil olmaqla 2020-ci ildə bu qəbildən olan insanlara, ümumilikdə 150 avtomobil verilib. İlin sonunadək isə 400 müharibə əlilinin avtomobillə təmin olunması planlaşdırılır. Onu da deyək ki, təqdim olunan avtomobillər yerli istehsal olan "Khazar LX" avtomobilləridir.



Bu dəfə verilən 50 avtomobil də daxil olmaqla indiyədək müharibə əlillərinə 6900 avtomobil təqdim olunub.

Dövlətimizin başçısına və birinci xanıma sosial təminat və birdəfəlik ödəmə, 2020-ci ildə məşğulluq tədbirləri, Dövlət Sosial Müdafiə Fondunun fəaliyyəti, sosial xidmətlər və reabilitasiya, şəhid ailələrinə və müharibə əlillərinə qayğı, DOST mərkəzlərinin fəaliyyəti, elektronlaşma və innovativ həllər, pandemiya ilə əlaqədar olaraq məşğulluğa və sosial rifaha dəstək tədbirləri barədə məlumat verildi. Ümumilikdə, Azərbaycanda xüsusi kateqoriyadan olan şəxslər üçün güzəşt və imtiyazların ildən-ilə daha da çoxalması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Şəhid ailələrinə və müharibə əlillərinə müavinət və təqaüdlər 2019-cu ilin aprelində təxminən 100 faiz artıb.

Bu ilin ilk 6 ayında müharibə əlillərinə 1435 reabilitasiya vasitəsi verilib. Hazırda bir çox şəhər və rayonda bərpa və uşaq bərpa mərkəzlərinin inşası və təmiri davam edir. İlin birinci yarısında 1, 2 və 3 saylı DOST mərkəzlərinə 61057 vətəndaş müraciət edib. Vətəndaş məmnunluğu isə 96 faizdir. Tezliklə Binəqədi, Abşeron, Sumqayıt, Quba və Bərdədə DOST mərkəzlərinin açılması nəzərdə tutulur.



Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

## Ermənistanın təxribatı işğalçı ölkə hakimiyyətinin əhalinin diqqətini daxili problemlərdən yayındırmaq məqsədi daşıyır

İyulun 12-də Ermənistan silahlı qüvvələri Tovuz rayonunun Ağdam kəndini 120 millimetrlik minaatanlardan atəşə tutub. Əlbəttə ki, düşmənin bu təxribatına qarşı qoşunlarımız tərəfindən daha sərt cavab tədbirləri görülüb və təxribatın qarşısı alınıb.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov deyib.

General-polkovnik bildirib ki, əgər müharibə başlayarsa, Ermənistanın ağır məğlubiyyətə uğrayacağı qaçılmazdır. Onları çox çətin duruma salacaq təxribata getməyə nə vadar etdi? Burada əsas məqsəd Azərbaycan Ordusunun mövqelərini ələ keçirmək, həmçinin canlı qüvvəyə və hərbi texnikaya zərər yetirməkdir. Azərbaycan Ordusunun həyata keçirdiyi əks-tədbirlər nəticəsində düşmən geri oturdulub, onun canlı qüvvəsinə və hərbi texnikasına ciddi zərər yetirilib. Azərbaycan Ordusunun əks-tədbirləri adekvat xarakter daşıyıb. Ermənistan təxribatlar törədib və Azərbaycan tərəfi birmənalı şəkildə Ermənistanın bu təxribatlarına qətiyyətli cavab verib.

Təşkilatın sədri Tofiq Ağahüseynov qeyd edib ki, hazırda Ermənistanda vəziyyət olduqca mürəkkəbdir, hakimiyyətə qarşı müxalifətin vahid cəbhədə birləşməsi prosesi gedir. Açıq-aydın görünür ki, Ermənistan hərbi bölmələrinin Azərbaycan-Ermənistan sərhədində növbəti təxribatı bu ölkənin hakimiyyətinin əhalinin diqqətini daxili problemlərdən yayındırmaq məqsədi daşıyır. Azərbaycanla sərhəddə təxribat Nikol Paşinyan hakimiyyətinə xarici düşmən mövzusunu qabartmağa və səriştəsiz



idarəçiliyinin yaratdığı problemləri gündəmdən çıxartmağa hesablanıb. Lakin Paşinyan belə təxribatlarla problemi aradan qaldırmaq cəhdlərinin hər hansı nəticə verəcəyi ehtimalının az olduğunun fərqində deyil.

“Bu gün əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müasir tələbləri əsasında formalaşdırılan Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır. Dövlətimizin başçısının, ordu rəhbərliyinin diqqət və qayğısının nəticəsidir ki, Azərbaycan Ordusu müasir silah-texnikası, nizami ordusu ilə düşməndən qisas almaq əzmindədir. Hər kəs inanır ki, Azərbaycan əsgəri əzəli torpaqlarımızı düşməndən azad edəcək. İnanıram ki, çox yaxında biz Qarabağın azadlığını da qələbə paradı ilə qeyd edəcəyik”, - deyə general polkovnik T.Ağahüseynov vurğulayıb.

## Azərbaycan dövləti veteranlara daim yüksək diqqət və qayğı göstərir

Koronavirus (COVID-19) pandemiyasının Azərbaycanda yayılmasının qarşısının alınması məqsədilə ölkə rəhbərliyi tərəfindən reallaşdırılan genişmiqyaslı tədbirlər çərçivəsində 245 nəfər müharibə veteranı-



na iyulun 4-dən etibarən ərzaq yardımları paylanılır. Aksiya Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynovun təşəbbüsü ilə həyata keçirilir.

Aksiyanın məqsədi koronavirusun yayıldığı dövrdə yaşayışında çətinlik yaranan və ehtiyacı olan qocaman vete-



ranlara dəstək göstərməkdir.

Təşkilatın sədri T.Ağahüseynov “Evdə qal, həyatları xilas et!” çağırışı ilə müraciət edərək veteranları, əhalini vətəndaş məsuliyyəti nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi riayət olunmasını tövsiyə edir. Veteranlara müraciətdə bildirilib ki, Prezident İlham Əliyev hər bir veteranın Vətən qarşısındakı xidmətlərini daim yüksək qiymətləndirir. Onun köməyi və dəstəyi ilə veteranlar bu çətin dövrü də arxada qoyacaqlar. Veteranlar özlərini və yaxınlarını qorumalıdırlar. Koronavirus pandemiyasının bütün dünyanı bürüdüyü bir vaxtda dövlətimizin başçısı tərəfindən atılmış qabaqlayıcı addımlar nəticəsində ölkəmiz bu bəladan cüzi itkilərlə çıxmaq üzrədir.



Yaddan çıxarılmamalıdır ki, veteranlar bundan da çətin sınaqlardan qalıb çıxıblar.

T.Ağahüseynov bildirib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Respublika Veteranlar Təşkilatına, ölkəmizdə veteran hərəkatının inkişafına, ümumiyyətlə, veteranlarımıza xüsusi diqqət və qayğı göstərir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu bu siyasət hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Ulu öndər Heydər Əliyevin ənənəsinə sadiq qalan dövlətimizin başçısı hər zaman 9 May - Qələbə Gününü veteran-



larla birlikdə qeyd edir, onların qayğıları ilə maraqlanır.

“Veteranlarımızın gənc nəslin düzgün istiqamətləndirilməsində rolu əvəzsizdir. Onlar nümunəvi şərəfli yol və həyat təcrübəsini gənclərlə bölüşür və tövsiyələrini verirlər. Veteranların bundan sonra da onlara göstərilən bu etimadı doğruldacağına əminəm. Biz gənclərin hərbi vətənpərvərlik və dövlətə sədaqət ruhunda tərbiyəsi üçün əlimizdən gələni bundan sonra əsirgəməyəcəyik”, - deyə Təşkilatın sədri vurğulayıb.

Qeyd edək ki, aksiya çərçivəsində Respublika Veteranlar Təşkilatının gənclərin hərbi vətənpərvərlik şöbəsinin mütəxəssisi İsmayıl İsmayılov və təşkilatın mətbuat xidmətinin əməkdaşı Şəhla Qarayeva, müvafiq rayon icra hakimiyyətlərinin və rayon veteranlar təşkilatlarının nümayəndələrinin iştirakı ilə Respublikanın bütün şəhər və rayonlarında yaşayan İkinci Dünya müharibəsi veteranlarına ərzaq yardımları artıq paylanılıb. Veteranlarla hər görüşdə təşkilatın nümayəndələri ölkəmizdə tətbiq olunan xüsusi karantin rejiminə ciddi əməl edilməsi, zərurət yaranmadan digər şəxslərlə təmas qurulmaması və virusun yayılmasının qarşısının alınmasına dəstək olacaq şəxsi gigiyenik qaydalara riayət edilməsinin vacibliyini vurğulayırlar.

Yardım aksiyası iyulun sonunadək davam edəcək.

AZƏRBAYCAN VETERANI



...Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. Mən hesab edirəm ki, bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq.

Prezident İlham Əliyev

## Tovuz əməliyyatları Xalqın, Dövlətin və Ordunun əbədi birliyinin tərənnümüdür

# Qəlblərdə əbədi yaşayan şəhidlər...



Şəhidlər bizim fəxrimiz, onların uyuduğu Vətən torpağı isə and yerimizdir. İllər keçsə də, nəsillər bir-birini əvəz etsə də qəhrəmanlıqları ilə dastan yazan şəhidlərimiz, torpaq uğrunda canından keçən oğul və qızlarımız heç vaxt unudulmayacaq. Onların əziz xatirəsi daim qəlbimizdədir. Demək olar ki, hər rayonda, hər kənddə şəhidlərimizin xatirəsinə bir abidə, bir xiyaban var. Söhbət açacağımız belə məkanlardan biri də Tovuzun Əyyublu kəndidir. Düşmən təxribatlarından bir ay keçməsinə baxmayaraq, tez bir müddətdə bu kənddə şəhidlər üçün abidə qoyulub. Abidəyə həkk olunan "Şəhidlər ölməz, Vətən bölünməz" sözləri isə hər bir tovuzlunun qürurla səsləndirdiyi ifadəyə çevrilib.

AZƏRTAC xəbər verir ki, Tovuz rayonunun ən böyük kəndi olan Əyyubludakı xiyaban indi insanların tez-tez ziyarət etdiyi məkanlardan birinə çevrilib.

İyul şəhidlərimizin əzəmətli fotoları parkın girəcəyinə yerləşdirilib. Kənd ağsaqqalı, ziyalı 89 yaşlı İsa Cavadoğlu düşmənin iyul təxribatı günlərini xatırlayaraq deyib ki, indiyədək insanlarda belə yüksək əhval-ruhiyyənin şahidi olmamışdı. Vətənə bağlılıq, ordu-xalq birliyi insanları bir amal ətrafında cəmləmişdir. "Yaşlı nəsildən tutmuş yeniyetmələrə qədər hamı döyüşə getməyə can atırdı. Xalq öz ordusuna güvənir, onun arxasında elə dayanmışdı ki, bunu sözlə təsəvvür




edə bilmirəm", – deyə Tovuz ziyalısı əlavə edib.

Əyyublu kənd sakini, tarix müəllimi Alim Sarıyev bildirib ki, Azərbaycanın qədim dövlətçilik ənənələri var. Bu, özünü bir daha Tovuz döyüşlərində də göstərdi. Xalqımızın döyüş ruhu yüksək səviyyədədir. Ordumuz bir daha sübut etdi ki, torpaqlarımızı azad etməyə hər an hazırdır. Döyüşlərin getdiyi ərəfədə qonşu dövlətlərdən, qardaş Türkiyədən, Pakistandan və başqalarından gördüyümüz mənəvi dəstək də bizi



hədsiz sevindirdi".

Ərazidə aparılan yenidənqurma işləri yerli sakinlərin də ürəyincə olub. Sakinlərlə söhbət zamanı onların ümumi fikri bu oldu ki, ordumuzun müasir silahları, texnikaları, peşəkar heyəti iyul təxribatı zamanı düşməni qorxuya salıb. Düşmən indi 30 il əvvəlki ordu ilə üz-üzə dayanmadığını çox yaxşı anlayır.

# Respublika Veteranlar Təşkilatı beynəlxalq qurumları Ermənistanın təxribatlarına hüquqi qiymət verməyə çağırır

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyəti beynəlxalq qurumları Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi növbəti təcavüz aktına görə işğalçı ölkə rəhbərliyini sərt şəkildə qınamağa çağıran bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir: "Ermənistan silahlı qüvvələrinin Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini atəşə tutması dünyada sülhə və əmin-amanlığa növbəti təhdiddir. Son günlər Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini mütəmadi şəkildə pozaraq Azərbaycan Ordusunun mövqelərini atəşə tutması hərbi qulluqçularımızın ölümünə və yaralanmasına səbəb olub. Eyni zamanda, Ermənistan məkrli və çirkin siyasətini davam etdirərək cəbhə bölgəsinə yaxın ərazilərdə yerləşən kəndlərin dinc əhalisini iriçaplı silahlardan və ağır artilleriyadan atəşə tutub. Nəticədə dinc sakinlər arasında da həlak olan və yaralananlar var. Belə ki, iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvə-



ləri artilleriya qurğularından istifadə etməklə Tovuz rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini ələ keçirmək məqsədilə hücuma keçməyə cəhd göstərib".

Bildirilib ki, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrinə bu günədək əməl etməyən, Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistanın ölkəmizin beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünə növbəti təxribatı da yolverilməzdir. Dünya ictimaiyyəti bilməlidir ki, Dağlıq Qarabağ münaqişəsində işğalçı ilə işğala məruz qalana eyni səviyyədə yanaşma Azərbaycan xalqına qarşı ayrı-seçkilikdir.

Azərbaycan Respublikası tolerant və multikultural dəyərləri ilə dünyada sülhün bərqərar olmasına daha çox səbir və qətiyyətlə yanaşıb. Ərazisi işğal altında olan və erməni atəşi altında yaşayan Azərbaycan xalqı daim dözüm nümayiş etdirib, münaqişənin dinc yolla həllinə çalışıb. Əfsuslar olsun ki, erməni tərəfi bu dəfə də Azərbaycanın humanizmindən öz mənfur əməlləri üçün istifadə edib.

"Biz veteranlar bir daha dünya ictimaiyyətini, xüsusilə də Dünya Veteranlar Federasiyasını və digər nüfuzlu beynəlxalq qurumları respublikamızın BMT tərəfindən tanınmış ərazilərinin işğaldan azad olunması, Ermənistanın Azərbaycan ərazisində törətdiyi cinayətlərə layiqli hüquqi qiymət verilməsi və beynəlxalq hüquq normalarının pozulmasının qarşısının alınması, eləcə də Dağlıq Qarabağ münaqişəsi nəticəsində soydaşlarımızın pozulmuş hüquq və azadlıqlarının bərpası istiqamətində zəruri addımlar atmağa və təxirəsalınmaz tədbirlər görməyə çağırırıq", - deyə müraciətdə vurğulanıb.

# Hər bir veteran bizim üçün əziz və qiymətlidir

## İkinci Dünya müharibəsi veteranlarına ərzaq məhsullarından ibarət sovqatlar paylanılır

Koronavirus (COVID-19) pandemiyasının Azərbaycanda yayılmasının qarşısının alınması üçün ölkə rəhbərliyi tərəfindən reallaşdırılan genişmiqyaslı tədbirlər çərçivəsində 245 nəfər müharibə veteranına iyulun 4-dən etibarən ərzaq yardımları paylanılır. Aksiya Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynovun təşəbbüsü ilə həyata keçirilir.

Aksiyanın məqsədi koronavirusun yayıldığı dövrdə yaşayışında çətinlik yaranan və ehtiyacı olan qocaman veteranlara dəstək göstərməkdir.

Xatırladaq ki, təşkilat "Evdə qal, həyatları xilas et!" çağırışı ilə veteranlara müraciət edərək, onları və əhalini vətəndaş məsuliyyəti nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi riayət olunmasını tövsiyə edir. Bildirilib ki, Prezident İlham Əliyev hər bir veteranın Vətən qarşısındakı xidmətlərini daim yüksək qiymətləndirir. Dövlət başçısının dəstəyi ilə Böyük Vətən müharibəsi veteranları bu çətin dövrü də arxada qoyacaqlar. Veteranlar özlərini və yaxınlarını qorumalıdırlar.

Qeyd edək ki, aksiya çərçivəsində Respublika Veteranlar Təşkilatının gənclərin hərbi vətənpərvərlik şöbəsinin mütəxəssisi İsmayıl İsmayılov və təşkilatın mətbuat xidmətinin əməkdaşı Şəhla Qarayeva, müvafiq rayon icra hakimiyyətlərinin və rayon veteranlar təşkilatlarının nümayəndələrinin iştirakı ilə Şamaxı, Ağsu, Qobustan, İsmayıllı, Qəbələ, Şəki, Göyçay, Ağdaş, Balakən və Zaqatala, Daşkəsən, Ağstafa, Gədəbəy, Goranboy, Göygöl, Gəncə, Qazax, Şəmkir, Tovuz, Sabirabad, Füzuli, İmişli, Ağdam, Bərdə, Beyləqan, Tərtər, Yevlax, Mingəçevir, Ucar, Zərdab, Kürdəmir, Quba, Qusar, Siyəzən, Xaçmaz , Nabran, Lənkəran, Masallı, Astara, Lerik, Yardımlı, Cəlilabad, Salyan, Neftçalada yaşayan İkinci Dünya müharibəsi veteranlarına ərzaq məhsullarından ibarət sovqatlar paylanılıb.

Veteranlarla görüşlərdə ölkəmizdə tətbiq edilən xüsusi karantin rejiminə ciddi əməl olunmasının, zərurət yaranmadan digər şəxslərlə təmas qurulmasının və virusun yayılmasının qarşısının alınmasına dəstək olacaq şəxsi gigiyenik qaydalara riayət edilməsinin vacibliyi vurğulanıb.

Çıxış edənlər Təşkilatın sədri general-polkovnik Tofiq Ağahüseynovun adından veteranları həmrəylik və xeyirxahlıq kimi mənəvi keyfiyyətlərin təcəssümünü tapdığı müqəddəs Qurban bayramı münasibətilə təbrik edib, onlara və ailələrinə cansağlığı, xoşbəxtlik arzulayıblar.

Respublika Veteranlar Təşkilatının nümayəndələri ilə görüşən rayon icra hakimiyyətlərinin rəhbər şəxsləri koronavirus pandemiyasının yayıldığı çətin dövrdə müharibə veteranları üçün başladılan yardım aksiyasını yüksək dəyərləndiriblər. Qurban bayramının insanları mərhəmətə və mənəvi saflığa ruhlandıran dəyərli adət-ənənələrimizdən biri olduğu qeyd edilib.

Xatırladaq ki, təşkilat "Evdə qal, həyatları xilas et!" çağırışı ilə veteranlara müraciət edərək, onları və əhalini vətəndaş məsuliyyəti nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi riayət olunmasını tövsiyə edib. Bildirilib ki, Prezident İlham Əliyev hər bir veteranın Vətən qarşısındakı xidmətlərini daim yüksək qiymətləndirir. Koronavirus pandemiyasının bütün dünyanı bürüdüyü vaxtda dövlətimizin başçısı tərəfindən atılmış qabaqlayıcı addımlar nəticəsində ölkəmiz bu bəladan cüzi itkilərlə çıxmaq üzrədir.

Aksiya Təşkilatın sədri general-polkovnik Tofiq Ağahüseynovun təşəbbüsü ilə həyata keçirilir. "Biz birlikdə güclüyük!" çağırışına əsasən keçirilən aksiya Bakının rayonlarını da əhatə edəcək.
















# İkinci Dünya müharibəsi əlillərinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlər qürur doğurur

Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırılması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə ardıcıl tədbirlərin həyata keçirilməsi qürur doğurur.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov deyib.

Təşkilatın sədri bildirib ki, 1994-cü ildə



"Veteranlar haqqında" Qanun qəbul olunmaqla, İkinci Dünya müharibəsi iştirakçılarına dövlət qayğısının ildən-ilə artırılması istiqamətində müvafiq işlər aparılıb. 2003-cü ildən etibarən ulu öndər Heydər Əliyevin layiqli siyasi varisi, Prezident İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilir. Son bir neçə ildə Böyük Vətən müharibəsi iştirakçılarına qayğı daha da artırılıb, onların sosial müdafiəsinin gücləndirilməsi sahəsində dövlətimizin başçısının çoxsaylı fərman və sərəncamları olub.

General-polkovnik qeyd edib ki, dövlətimizin başçısı İlham Əliyev prezident seçildiyi dövrdən etibarən hər zaman veteranlara, müharibə əlillərinə, arxa cəbhədə fədakar əməyi ilə fərqlənən insanlara qayğı ilə yanaşıb. Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı il 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Prezidentinin 2020-ci il 21 iyul tarixli Sərəncamı bunun əyani sübutu və veteranlara, müharibə əlillərinə göstərilən qayğının bariz nümunəsidir.

"Həyata keçirilmiş sosial proqramlar Vətənə canı bahasına xidmət etmiş və bu gün də layiqincə xidmət edən insanlara, onların ailə üzvlərinə önəm verildiyini bir daha sübut edir. Ali Baş



Komandanın bu istiqamətdə imzaladığı fərmanlar və sərəncamlar veteranlarımıza və onların yaxınlarına, eləcə də sabah torpaqlarımızın düşmən işğalından azad olunması yolunda fədakarlıq göstərəcək əsgər və zabitlərimizə ünvanlanmış aydın və birmənalı mesajıdır. Vətən, xalq, dövlət öz müdafiəçilərini daim qiymətləndirir, onların xidmətlərini heç vaxt yaddan çıxarmır. Veteranlarımıza göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, eləcə də Birinci vitse-prezident Mehriban Əliyevaya Respublika Veteranlar Təşkilatının rəhbərliyi, eyni zamanda, veteranlarımız adından xüsusi minnətdarlığımı bildirirəm", - deyə general polkovnik T.Ağahüseynov vurğulayıb.

# Veteranlar Təşkilatı mətbuat qurumları ilə əməkdaşlığa önəm verir

Mətbuat cəmiyyət həyatının, tarixi proseslərin, milli düşüncənin, xalqın mənəviyyatının əksidir. 1875-ci il iyulun 22-də görkəmli maarifçi, alim və publisist Həsən bəy Zərdabinin əsasını qoyduğu "Əkinçi" qəzeti ilə xalqımızın milli oyanışında, mədəni mühitimizdə yeni üfüqlər açılıb. 145 yaşı tamam olan Azərbaycan milli mətbuatının zəngin tarixi vardır.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov deyib.

General-polkovnik qeyd edib ki, "Əkinçi"nin maarifpərvərlik məfkurəsi, yaydığı fikirlər xalqımızın azadlıq və milli ruh ideallarına çevrilərək ölkəmizin gələcəyinə mühüm töhfələr verib. Həsən bəy Zərdabinin açdığı cığırla irəliləyərək milli mətbuatımızı irəli aparan fədakar ziyalılarımızı, qələm sahiblərini bu gün minnətdarlıqla yada salır, onların tarixi xidmətlərini unutmuruq.

Təşkilatın sədri bildirib ki, milli mətbuatımız müstəqillik illərində böyük inkişaf yolu keçib. Vətəndaş cəmiyyətinin formalaşdırılmasında, milli birlik və tolerantlıq dəyərlərinin möhkəmləndirilməsində Azərbaycan mətbuatı mühüm bir missiya yerinə yetirir. Eyni zamanda dövlətimiz kütləvi informasiya vasitələrinin bu mühüm rolunu həmişə dəstəkləyib, mətbuatın inkişafına hərtərəfli şərait yaradıb.

"Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı mətbuat qurumları ilə əməkdaşlığa hər zaman önəm verir, KİV-in fəaliyyətini yüksək qiymətləndirir. Azərbaycan Prezidentinin bugünkü sərəncamları ilə 138 KİV əməkdaşının mükafatlandırılması, mediaya dəstək məqsədilə əlavə vəsaitin ayrılması dövlətimizin başçısının jurnalist əməyinə və mətbuata göstərdiyi yüksək qiymətin əyani təzahürüdür. Odur ki, bu əlamətdar gün münasibətilə ölkənin bütün media təmsilçilərini, o cümlədən "Azərbaycan veteranı" qəzetinin əməkdaşlarını, dövlət mətbuatının nümayəndələrini Respublika Veteranlar Təşkilatının kollektivi və öz adımdan təbrik edir, onlara məsuliyyətli və şərəfli işlərində yeni uğurlar arzulayıram", - deyə T.Ağahüseynov vurğulayıb.

# Ölkənin ən yaşlı polis veteranı Əlikişi Cümşüdovun doğum günü qeyd olunub



Ölkənin ən yaşlı polis veteranı Əlikişi Cümşüdovun 98 yaşı tamam olub. Bu münasibətlə Nərimanov rayon gəncləri Əlikişi Cümşüdovu ziyarət edib, onu doğum günü və 2 iyul – Azərbaycan Polisi Günü münasibətilə təbrik edib, xoş arzularını çatdırıblar.

Qeyd ediblər ki, gəncliyin çətin illərində məşəqqətli günlər yaşamış, uzun döyüş yolu keçmiş, üç dəfə yaralanmağına baxmayaraq yenidən səngərə qayıtmış veteran müharibədən sonra da xidmətdəki nümunəvi fəaliyyəti, dəqiqliyi ilə seçilib, kollektivin hörmətini qazanıb. Hazırda ölkəmizin ən yaşlı polis veteranıdır.

Eyni zamanda, Nərimanov Rayon Gənclər və İdman İdarəsi tərəfindən 2 iyul – Azərbaycan Polisi Günü münasibətilə təşkil olunmuş onlayn bayram tədbirində iştirak edən 100 gənc polis veteranı Əlikişi Cümşüdovu doğum günü və 2 iyul – Azərbaycan Polisi Günü münasibətilə təbrik edib.



# Tofiq Ağahüseynov: Polis Günü Azərbaycanın hər bir vətəndaşının bayramıdır

1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə təsis edilmiş polis orqanları mərdlik, cəsarət və rəşadətlərlə zəngin bir yol keçərək həm Cümhuriyyət, həm də Sovet İttifaqı dövründə şərəfli missiyasını layiqincə yerinə yetirib, cinayətkarlıqla mübarizənin ön sıralarında duraraq, daxili asayişin və təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayıb, böyük təcrübə




qazanaraq daha da möhkəmlənib. Polis Günü Azərbaycanın hər bir vətəndaşının bayramıdır.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynovun Polis Günü münasibətilə Daxili İşlər Nazirliyinin şəxsi heyətinə təbrik məktubunda qeyd olunub.

Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar nəticəsində, dövlətçiliyin möhkəmləndirilməsində, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında, cinayətkarlıqla mübarizədə müstəsna xidmətləri olan Daxili İşlər Nazirliyi orqanları əməkdaşları bu gün peşə bayramlarını yüksək səviyyədə qeyd edirlər.

"Polisin şanlı tarixinin ən mühüm mərhələləri xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin "Azərbaycan polisi gününün təsis edilməsi haqqında" 1998-ci il 24 may tarixli Fərmanına əsasən məhz bu tarixi gün hər il respublikada Polis Günü kimi qeyd olunub. İllərin danılmaz həqiqətlərindən biri də budur ki, artıq heç bir qüvvə daxili işlər orqanlarına Vətənə xidmət borcunu yerinə yetirməkdə mane olmaq iqtidarında deyil. Azərbaycan Polisi peşəkarlığını artırmaqla yanaşı, beynəlxalq standartlara da uyğunlaşdırılır. Bu çətin günlərdə biz hamımız vətəndaşlarımızın sağlamlığı naminə onların atdığı qətiyyətli addımların, yüksək vətəndaş məsuliyyətinin və peşəkarlığının şahidi oluruq", - deyə T.Ağahüseynov vurğulayıb.

# Veteran tankçılarımız torpaqlarımızı düşmən tapdağından azad etmək üçün döyüş əmrinə hər an hazırdırlar

Biz, Qarabağ müharibəsinin iştirakçıları olan veteran tankçılarımız iki dəfə Sovet İttifaqı Qəhrəmanı, Tank Qoşunları qvardiya general-mayoru Həzi Aslanovun şərəfli döyüş yolunu örnək alaraq onun davamçıları olmağımızla fəxr edirik. Vətənimizin, Ali Baş Komandanın sadiq əsgərləri olan veteran tankçılarımız torpaqlarımızı düşmən tapdağından azad etmək üçün döyüş əmrinə hər an hazırdırlar.

Bu fikirlər Veteran Tankçılar İctimai Birliyinin AZƏRTAC-a daxil olan müraciətində yer alıb.

Müraciətdə bildirilib ki, Qarabağ müharibəsinin döyüşçüləri, eləcə də veteran tankçılarımız Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətindəki yorulmaz, qətiyyətli fəaliyyətini ürəkdən bəyənir və dəstəkləyirlər. Ölkəmizin inkişafı, Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin durmadan artırılması, torpaqlarımızı işğaldan azad etməyə hər an hazır olan Azərbaycan Ordusunun düşmənə öz gücünü göstərməsi qəlbimizdə qürur və inam hissi doğurur. Biz Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətənə, xalqa, dövlətə şərəf və ləyaqətlə xidmət etməkdən sonsuz qürur duyuruq. Ulu öndər Heydər Əliyevin müharibə veteranlarına diqqət və qayğı siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev bütün sosial problemlərimizin həllinə daim həssas yanaşır. Veteran tankçılarımız bu diqqət və qayğını hər zaman yüksək qiymətləndirirlər.



"Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycanın Milli Qəhrəmanı tankçı Albert Aqarunovun şərəfinə ucaldılan abidə şəhidlərimizin ruhuna göstərilən yüksək ehtiramın bariz nümunəsidir. Bakıda Milli Qəhrəman Albert Aqarunovun abidəsinin açılışı onun döyüş yoldaşları olan veteran tankçıları fərəhləndirib. Biz Qarabağ döyüşçüləri, veteran tankçılar, qazilər Prezident, Ali Baş Komandamız İlham Əliyevin rəhbərliyi ilə gündən-günə inkişaf edən müstəqil Azərbaycanımızın ərazi bütövlüyü, işğal altındakı tarixi torpaqlarımızın azadlığı uğrunda döyüş əmrinə həmişə hazırıq", - deyə müraciətdə bildirilib.

Veteran Tankçılar İctimai Birliyinin ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etməsinin vurğulandığı müraciətdə qeyd olunub ki, birinci tank taborunun veteran döyüşçüləri, qaziləri Azərbaycan gənclərinin hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi işində də əllərindən gələn köməyi əsirgəmirlər.

Qeyd edək ki, Qarabağ müharibəsində Azərbaycan Ordusunun ilk tank taboru olan Səbail tank taboru erməni işğalçılarına qarşı döyüşlərdə qəhrəmanlıq, igidlik nümunələri göstərib. Taborun 3 döyüşçüsü - Albert Aqarunov, Şövqüyar Abdullayev və Əsəd Əhmədov (ölümlərindən sonra) Azərbaycanın Milli Qəhrəmanı, Əhməd Mehbalıyev və Qabil Süleymanov (ölümündən sonra) isə "Azərbaycan bayrağı ordeninə layiq görülüblər. Səbail tank taborunun veteran döyüşçüləri Veteran Tankçılar İctimai Birliyini təsis ediblər.

# Nasizmə qarşı etibarlı sipərin olması vacibdir



Böyük Vətən müharibəsinin Qələbə yaylım atəşləri bizdən uzaqlaşdıqca, müəyyən siyasi dairələr 75 il bundan əvvəl baş verən hadisələri şübhə altına qoymaq və hətta yenidən yazmaq kimi cəhdlərində daha da israrlıdırlar. Rusiya-Azərbaycan Dostluq Mərkəzinin rəhbəri, psixoloq Nataliya Krasovskaya bu tendensiyanın müasir dünya üçün nə dərəcədə təhlükəli olması barədə mülahizələrini bildirir.

-Nataliya Rudolfovna, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Qələbənin 75 illiyi ilə bağlı İkinci Dünya müharibəsinin bütün iştirakçılarına, müharibə iştirakçılarının dul qadınlarına, həmçinin həmin dövrdə arxa cəbhədə çalışan şəxslərə birdəfəlik maliyyə yardımı təqdim edilib. Dövlət başçısı və Birinci vitse-prezident Mehriban Əliyeva bu müharibədə həlak olanların abidələri üzərinə birlikdə gül və əklillər qoymaq üçün hər il mayın 9-da veteranlarla görüşürlər. Siz azərbaycanlıların veteranlara və Böyük Vətən müharibəsinin xatirəsinə münasibətini necə dəyərləndirirsiniz?

-Böyük Vətən müharibəsi Azərbaycan üçün ölkənin tarixində ən faciəli səhifələrdən biridir və biri olaraq qalmaqdadır. Faşizmlə vuruşma illərində cəbhəyə 600 mindən artıq azərbaycanlı yollanıb: əgər nəzərə alsaq ki, müharibədən əvvəl respublikanın əhalisinin sayı indiki ilə müqayisədə 3 dəfə az idi, o halda bu, çox böyük rəqəmdir. Döyüşçülərin təxminən yarısı döyüş meydanlarında həlak olub, buna görə də həm həlak olanların, həm də sağ qalanların xatirəsinə xüsusi həssas münasibət Azərbaycan üçün səciyyəvidir. Qələbə Günü ərəfəsində respublikada "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi" yubiley medalı təsis edilib. Müharibə illərinin bütün ağırlığını öz çiyinlərində daşıyanları dəstəkləmək üçün dövlət tərəfindən xeyli vəsait ayrılıb, lakin bu iş birdəfəlik yardımla məhdudlaşmır: müharibə iştirakçılarına qayğı göstərilməsi daimi xarakter daşıyır. Müharibə iştirakçılarının əksəriyyətinin yaşı 90-ı keçib, lakin Prezident İlham Əliyevin öz müsahibələrində qeyd etdiyi kimi, veteranlar bu gün də vətənpərvərlik örnəyi olaraq və azərbaycanlıların gənc nəslinə enerji ötürərək yüksək mənəvi ruh, nikbinlik və həyat eşqi nümayiş etdirirlər.

-Son vaxtlar Ermənistanda baş nazir Nikol Paşinyanın babasının keçmişi ilə bağlı qalmaqal qızışır. Əksər KİV-lər öz təhqiqatlarını aparır və ardıcıl olaraq yeni faktlar dərc edirlər. Sizin fikrinizcə, Paşinyan və onun ətrafı niyə bu məsələyə aydınlıq gətirmirlər?

-Paşinyan tərəfindən susma babası ilə bağlı vəziyyəti təkcə "əyləcdə buraxmaq" cəhdi deyil, həm də Njdenin xatirəsini əbədiləşdirmək məsələsində Ermənistanın mövqeyini qorumaq istəyi kimi görünür. Axı hələ MDB-nin Aşqabad Sammitində Paşinyan Njdeni milli qəhrəman adlandırmış və onu Stalin tərəfindən cəzalandırılmış sovet ziyalılarının nümayəndələri ilə müqayisə etmişdi. Hesab edirəm ki, müstəqil təhqiqat aparılmalı və bununla da Paşinyanın babasının satqın olması sualına cavab verilməlidir. Lakin Ermənistanın hakimiyyət orqanları tərəfindən bundan əvvəlki hakim rejimin faşist əlaltılarına münasibətinə rəsmi şəkildə yenidən baxılması beynəlxalq birliyin gözündə daha mühüm olardı. Əfsuslar olsun ki, biz hələ də Yerevanın mərkəzində Njdenin abidəsini görürük və Paşinyanın yalnız anlaşılmaz şərhlərini eşidirik. Bir faktı da əlavə etmək yerinə düşər ki, Paşinyanın rəhbərlik etdiyi Ermənistanın hakim "Mənim addımım" partiyası müharibə veteranları üçün aylıq ödəmələrin artırılması haqqında qanun layihəsini parlamentin gündəliyinə daxil etməyib. Bu faktları üz-üzə qoymaq düşüncəli adam üçün kifayətdir.

-Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə müxtəlif beynəlxalq məkanlarda Ermənistanda nasizmin qəhrəmanlaşdırılması məsələsini qaldıraraq qonşu ölkədə belə tendensiyanın təhlükəli olduğunu qeyd edib. Siz necə hesab edirsiniz, Qafqaz regionu ölkələri bununla bağlı hansı tədbirləri görməlidirlər?

-Hər bir ölkənin tarixində özünəməxsus qara ləkələr mövcuddur. Ermənistanın tarixi üçün bu faciəli səhifə "general Dro" adlandırılan şəxsin rəhbərliyi altında 30 min satqının xidmət etdiyi vermaxtın erməni legionu olub. Lakin erməni xalqının faşizm üzərində Qələbəyə töhfəsi cəmiyyətdən qovulan bir ovuc acizin fəaliyyətindən qat-qat əhəmiyyətlidir. Hazırda Ermənistanda faşist canilərinin qəhrəmanlaşdırılmasının dövlət siyasəti dərəcəsinə qaldırılması təəssüf doğurur. Hitlerçi cəllad və hərbi cani Njdeyə qoyulan abidə buna əyani misaldır. Hesab edirəm ki, Ermənistanın da daxil olduğu Müstəqil Dövlətlər Birliyi bu təhlükəli tendensiyaya ən sərt dəyəri verməlidir. Axı faşizmlə mübarizənin əsas yükü indiki postsovet məkanının dövlətləri üzərinə düşüb. Şübhəsiz ki, hərbi tarixin yenidən yazılması və ya İkinci Dünya müharibəsi abidələrinə münasibətdə vandalizmin təzahürü digər beynəlxalq təşkilatların da, o cümlədən ən nüfuzlu beynəlxalq təşkilatların müzakirələrinin əsas predmeti olmalıdır. Özü də onların qəbul etdiyi qərarlarda cəza mexanizmi də nəzərdə tutulmalıdır. Yalnız bu yolla müasir dünyada nasizmi dirçəltməyə yönəldilən bütün cəhdlərin qarşısına etibarlı sipər qoyulacaq.

Fəridə Abdullayeva
AZƏRTAC-ın xüsusi müxbiri
Moskva

AZƏRBAYCAN VETERANI

# Qürbətdə qalan məzar...

Azərbaycan sovet tarixşünaslığında "Böyük Vətən müharibəsi" kimi adlandırılan 1941-1945-ci illər müharibəsində Azərbaycan xalqı faşizm üzərində qələbənin qazanılmasında böyük töhfələr vermişdir. Cəbhəyə yollanmış 600 mindən çox azərbaycanlının 300 mindən çoxu döyüş meydanlarında həlak olmuşdur. Bu amansız müharibədə ölkəmizin müxtəlif bölgələrindən cəbhəyə oğul və qızlarımız səfərbər olmuşlar. Çağırışçılar arasında Ağcabədi rayonundan olan həmyerlilərimizin də igidliyinə rast gəlmək olur. Ağcabədi rayonundan cəbhəyə yollananların sayı 5 mindən çox olmuşdur. Onlardan 563 nəfəri geri qayıtmış, qalanları həlak olmuş və itkin düşmüşlər (1). Hərbi əməliyyatlarda iştirak edən ağcabədililər arasında daha çox Ənnağı və Əlaslan Bünyadov qardaşlarının igidlikləri müxtəlif tədqiqatçıların əsərlərində rast gəlinir.



Azərbaycan sovet tarixşünaslığında mövzu ilə bağlı tədqiqatlarda Əlaslan və Ənnağı Bünyadov qardaşlarının döyüş yolunu görmək olar. Tədqiqatçı İ. Məmmədov "Qəhrəmanlıq tarixindən səhifələr" adlı əsərində göstərmişdir ki, 416-cı Taqanroq diviziyasının cəsur döyüşçüsü Ənnağı Bünyadov növbəti hərbi əməliyyatda ağır yaralanır. O, son nəfəsində qardaşını və döyüş yoldaşlarını faşistlərə qarşı amansız olmağa çağırmışdır (2.,səh.47). Qeyd edək ki, bu fakta sonralar digər hərbi oçerklərdə və bəzi tədqiqatlarda rast gəlinir.

Rizvan Zeynalov və Lev Borodetski "Qafqaz dağlarının ətəklərindən Berlinədək" adlı əsərdə 416-cı diviziyanın digər döyüşçüləri ilə yanaşı bu igid qardaşlardan da bəhs etmişdir. Müəlliflər əsərdə 416-cı milli atıcı diviziyanın tanınmış zabiti, kapitan Əhməd Əhmədovun xatirələrini verir : "Biz, qəhrəman Əlinağını (Ənnağı - Ş.M.) şaxtalı bir gündə Mius çayının sahilində dəfn etdik (3.,səh.68). Onun məzarı üzərinə torpaq tökərkən, qardaşı Əlaslan öz avtomatını yuxarı qaldırıb dedi: "Qardaşım, and içirəm ki, sənin intiqamını alacağam". Biz bu andı təkrar etdik, çünki biz də özümüzü Əlinağının qardaşı hesab edirdik. Ona görə ki, bizim hamımız düşməndən intiqam almaq üçün vuruşurduq. Bax, biz düşməndən intiqam aldıq. Bizim dəmir halqamızın içərisində onların nəfəsi kəsildi. Məhz buna görə də mən Əlinağını yad etdim, çünki bu qələbədə onun da payı vardır" (3.,səh.69).

Ənnağı Bünyadovun son nəfəsində döyüş yoldaşlarına dedikləri gənc nəslin vətənpərvərlik ruhunda böyüməsi baxımından əhəmiyyətlidir. Həmin sözlər orta ümumtəhsil məktəblərinin XI sinif "Azərbaycan tarixi" dərsliyinə də salınmışdır : "Qardaş, ölürəm. Vətənimizin bu günlərində ölmək istəməzdim, düşmənlə vuruşmaq istəyirəm... Ancaq sənə sözüm var, yaxşı qulaq as: xalqımıza, Vətənimizə sədaqətlə qulluq elə, igid ol, mənim qanımı al. Evimizə yaz ki, mən necə vuruşdum və necə öldüm. Qoy bilsinlər, Ənnağı Vətən qarşısında öz borcunu yerinə yetirmişdir" (4.,səh.103).

Cəsur kəşfiyyatçı Ənnağının bu sözləri "Azərbaycanın mərd oğulları" əsərindən götürülmüşdür. Həmin əsərdə azərbaycanlı igidlərin döyüş yolu ilə yanaşı bu iki qardaşın şücaəti də təsvir edilmişdir (5.,səh.4).

Ənnağı Bünyadovun silahdaşlarına bu müraciəti müharibə illərində azərbaycanlılardan təşkil olunmuş 416-cı Taqanroq diviziyasının komandiri general-mayor Dmitri Mixayloviç Sızranovun 1943-cü ilin avqustunda Azərbaycanın o vaxtkı siyasi lideri Mir Cəfər Bağırova yazdığı məktubda əks olunmuşdur. Həmin məktubda diviziyanın komandiri D. M. Sızranov cəsur döyüşçülərin adlarını çəkir,Əlaslan və Ənnağı Bünyadov qardaşlarının igidliyi barədə məlumat verir. Bu isə, Ənnağı və Əlaslan Bünyadov qardaşlarının igidlikləri barədə o vaxtkı ölkə rəhbərinin məlumatlı olmasını göstərən rəsmi sənəddir (6).



İgid qardaşların döyüş yoluna aid sənədli film çəkilmiş, respublikamızın müxtəlif qəzet və jurnallarında yazılar getmişdir. Onların mənsub olduqları Kəbirlilərə aid əsərdə Bünyadov qardaşlarının nəsil şəcərəsi verilmiş, müharibədə iştirak edən kəbirlilərin siyahısı göstərilmişdir. Süleyman Kəbirlinin müəllifi olduğu bu Kitabda Əlaslan və Ənnağı Bünyadov qardaşlarının da adlarına rast gəlinir (7.,səh.113).

S. Kəbirlinin digər əsərində "Cəsur qəhrəmanlar" başlığı altında Ənnağı və Əlaslan Bünyadovların fotoları verilmiş, onların döyüş yoluna ümumi nəzər salınmışdır. Burada Ənnağının cəbhəyə könüllü getməsi, kəşfiyyatçı kimi hitlerçiləri dəfələrlə əsir alması, döyüşlərin birində ağır yaralanması və silahdaşları tərəfindən dəfn edilməsi göstərilmişdir (8.,səh.251-252).

İgid qardaşların adına "Kommunist" qəzetinin xüsusi müxbiri Xəlil Mütəllimovun "Müasirlərimizin portretləri" kitabında da rast gəlinir. Yevlaxdan müharibəyə çağırılan və Stalinqrad döyüşlərinin iştirakçısı olan leytenant X. Mütəllimovun ölkəmizin müxtəlif bölgələrindən olan tanınmış adamlara həsr olunmuş bu kitabında Ağcabədi rayonunun "Tacikistan" kolxozunda (indiki Hindarxı qəsəbəsi - Ş.M.) Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan SSR Ali Sovetinin deputatı Şaban Rzayevlə görüşündən bəhs edən "Tarla qəhrəmanı" adlı yazısında aşağıdakı faktlara rast gəlinir : "Çayxanada Salmanbəyli kənd məktəbinin direktoru Əraslan Bünyadovla (Əlaslan -Ş.M.) tanış olduq. Məktəb diektorunun maraqlı həyat yolu vardır. O, öz qardaşı Əlinağı (Ənnağının adına bəzən belə də rast gəlinir -Ş.M.) ilə birlikdə 416-cı diviziyada kəşfiyyatçı işləmişdir. Ağır yaralı Əlinağı Taqanroq uğrunda vuruşmalarda qardaşı Əlaslanın qolları arasında həlak olmuşdur. Ehtiyatda olan kapitan Əlaslan o günləri ürək ağrısı ilə xatırlayır. İndi rayonda bir kolxoz (Hüsülü və Rəncbərlər kəndlərini əhatə edən "Ənnağı Bünyadov adına kolxoz" -Ş. M.) onun cəbhədə həlak olmuş qardaşı Bünyadovun adını daşıyır. Biz Əlaslanla xudahafizləşib yolumuza davam etdik" (9.,səh.61).

Qeyd edək ki,Ənnağı Bünyadovun döyüş yolundan bəhs edən məlumatlara Rusiya Federasiyası Müdafiə Nazirliyinin Mərkəzi Arxivindəki mühafizə olunan sənədlərdə də rast gəlinir : " 1923-cü ildə Ağcabədi rayonunun Salmanbəyli kəndində anadan olmuş Bünyadov Ənnağı Məmməd oğlu 416-cı diviziyanın 1368-ci atıcı alayının tərkibində döyüşmüşdür. Kapustino və Sambek yaşayış məntəqələri uğrunda gedən döyüşlərdə xüsusi ilə fərqlənən Ənnağı "İgidliyə görə" medalı (20.04.1943.Əmr №03n) ilə təltif edilmişdir. 1943-cü ilin martından Ənnağı Bünyadov piyada kəşfiyyat manqasının komandiri təyin edilmişdir. O, özünü bacarıqlı və qorxmaz kəşfiyyatçı kimi göstərmişdir. Komandanlığın növbəti döyüş tapşırığını (24 aprel 1943) yerinə yetirərkən qəhrəmancasına həlak olmuş və kənddə dəfn olunmuşdur. Qəbri Rostov vilayətinin Primorka Neklinov rayonundadır" (10).

Qəhrəmanın qürbətdə qalan məzarı onun qardaşı oğlanları Nazim və Füzuli tərəfindən dəfələrlə ziyarət edilmişdir.

Mövsümov Şəfa Kamran oğlu
AMEA Milli Azərbaycan Tarixi Muzeyinin elmi işçisi

# "Öncə Vətən" adlı sosial layihəyə start verilib




Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi "Öncə Vətən" adlı sosial layihəyə start verib.

Bu barədə AZƏRTAC-a Komitənin mətbuat xidmətindən məlumat verilib.

Layihə çərçivəsində Dövlət Komitəsi tərəfindən respublikanın müxtəlif bölgələrində məcburi köçkünlərin müvəqqəti məskunlaşma yerlərində ağsaqqallar, ziyalılar, ictimai fəallar, şəhid ailələrinin üzvləri, keçmiş döyüşçülər, batalyon komandirləri və gənclərin iştirakı ilə 100-dən çox videoçarx hazırlanıb.

Çəkilişlərdə ölkədəki mövcud ictimai-siyasi vəziyyət, dövlətimizin başçısının daxili və xarici siyasəti, ordumuzun Tovuz istiqamətində erməni təxribatına qarşı apardığı döyüşlər, şəhid olan hərbçilərimizə göstərilən rəğbət və ehtiram, orduya ümumxalq dəstəyi ifadə edilib. Məcburi köçkünlər - ağsaqqallar, ziyalılar, fəallar, müharibə veteranları və digər sosial qrupların nümayəndələri Prezident İlham Əliyevin apardığı siyasəti dəstəklədiklərini, ölkəmizin gücü və nüfuzunun daha da möhkəmlənməsi üçün ölkə başçısının ətrafında birləşməyin vacibliyini bildiriblər.

Videoçarxlarda, eyni zamanda, antimiilli qruplaşmaların mahiyyəti, xüsusən, belə qruplaşmaların sosial şəbəkələrdəki fəaliyyəti, onların yalan və iftiralarının ifşasının vacibliyi, gənc nəslin sağlam ruhda tərbiyəsinə diqqətin artırılması və s. məsələlər barədə ətraflı söhbətlər aparılıb. Bununla yanaşı, 1990-cı illərin əvvəlində Azərbaycanda mövcud olan siyasi rəhbərliyin yarıtmaz fəaliyyəti, hakimiyyət üzərində mübarizə, orduda vahid komandanlığın olmaması və




nəticədə ərazilərimizin işğalına səbəb olan faktorlara münasibət bildirilib.

Xatırladaq ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi bu ilin əvvəlindən daha bir sosial layihəyə - "Əsgərə Salam" hərbi vətənpərvərlik aksiyasına start verib. Layihənin keçirilməsində məqsəd cəmiyyətin müxtəlif təbəqələrinin Silahlı Qüvvələrimizin şəxsi heyəti ilə həmrəyliyini nümayiş etdirməkdir. Hazırda həmin layihə də davam edir.

# Beynəlxalq aləm öz qərarlarına hörmət etməlidir

XX əsrin əvvəllərində milli dövlətçiliyimizi qorumaq, ölkəni xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün özünün silahlı qüvvələrini yaratmaqla milli dövlətçiliyimiz yolunda ölçüyəgəlməz, qarşısıalınmaz bir prosesə başlanılmış, lakin Xalq Cümhuriyyətinin devrilməsi nəticəsində ölkəmizdə ordu quruculuğu prosesi müəyyən bir zaman kəsiyində yarımçıq qalmışdır. Müstəqil dövlətçiliyin bərpası ərəfəsində və bərpasından sonrakı iki ildə də Azərbaycanda hərbi və silahlı qüvvələrlə bağlı vəziyyət çox acınacaqlı olmuşdur. Dağlıq Qarabağda silahlı separatizmin baş qadırdığı və Ermənistanın hərbi təcavüzə əl atdığı bir dövrdə respublikamızda hərbi işin, silahlı müdafiə tədbirlərinin təşkilində ciddi nöqsanlara, hətta cinayətkarlıq hesab edilə biləcək laqeydliyə və biganəliyə yol verilirdi. Yalnız 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı milli müstəqillik arzularının qarşısındakı maneələrin dəf edilməsini, dövlət quruculuğu prosesinin, o cümlədən hərbi quruculuğun başlanmasını mümkünləşdirdi, bütün sahələrdə, o cümlədən ordu quruculuğu istiqamətində aparılan siyasət uğurları təmin etdi.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçildikdən dərhal sonra Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu ilə bağlı qəbul etdiyi mühüm qərarlar, silahlı qüvvələrin dövlətin tam nəzarətinə keçməsi Qarabağ cəbhəsindəki vəziyyətə müsbət dinamika gətirə bildi. Xalqımızın Ümummilli Liderinə inam əsgər və zabitlərimizə fiziki-mənəvi güc verdi, Füzuli və Ağdam rayonlarının bir sıra yaşayış məntəqələri işğaldan azad edildi, ordumuz cəbhədə təşəbbüsü ələ aldı. 1994-cü ilin ilk aylarında bütün cəbhə boyu irimiqyaslı hücum əməliyyatlarının nəticəsiz qaldığını görən düşmən qısa müddətdə ordumuzun gücü qarşısında atəşkəsə razılıq verməli oldu.

Ulu Öndər həmin dövrdə Silahlı Qüvvələrimizin bütün növlərinin daha səmərəli şəkildə yenidən təşkili və inkişafı, şəxsi heyətin sosial-məişət problemlərinin həlli, hərbi təhsil sisteminin təkmilləşdirilməsi və genişləndirilməsi, gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi istiqamətində mühüm və təxirəsalınmaz tədbirlər həyata keçirdi. Tarixi varislik ənənəsi əsas götürülərək, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Ordunun yarandığı 26 iyun gününün Azərbaycan Silahlı Qüvvələri Günü kimi bayram edilməsi barədə fərman imzalandı.

Bu gün ümummilli lider Heydər Əliyevin ordu quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın bütün strateji əhəmiyyətli sahələrində dinamik inkişafı təmin edən ardıcıl və sistemli islahatlar həyata keçirən dövlət başçısı ordu quruculuğuna da xüsusi diqqətlə yanaşır. Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətlərindəndir.

Ölkə başçısının göstərişi ilə xidməti yüksək səviyyədə aparmaq üçün bütün imkanlar yaradılmış, bütün hərbi hissələr, şəhərciklər, hərbi bazalar faktiki olaraq yenidən qurulmuş, hərbi hissələrin 90 faizində tikinti-bərpa, yenidənqurma işləri tamamlanmışdır. Şəxsi heyətin xidmət şəraitinin yaxşılaşdırılması ilə bərabər, zabitlərin məişət problemləri də həll olunur. Orduda 20 il qüsursuz xidmət edən zabitlərə dövlət tərəfindən mənzillər verilir. Hərbçilərin əməkhaqları müntəzəm olaraq qaldırılır, fərqlənmiş hərbçilər mükafatlandırılır.

Ölkəmizdə ordu quruculuğu təkcə fiziki güc, müasir silah və texnika amillərinə əsaslanmır. Azərbaycan Ordusunda hər bir əsgər və zabitin ilk olaraq ideoloji cəhətdən silahlanması tələbi qoyulur, ölkəmizin qədim və müasir tarixi ilə əlaqədar gənclərimizdə dolğun təəssürat yaradılır. Bu, əslində Azərbaycanın ordu quruculuğu tarixində çox incə hərbi-diplomatik bir manevrdir.

Güclü ordu üçün ən əsas şərtlərdən biri də şəxsi heyətin mənəvi-psixoloji vəziyyətidir. Əgər psixoloji durum yüksək səviyyədə olarsa, ən müasir texnika ilə təchiz olunmuş düşmənə də qalib gəlmək olar. Ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət Azərbaycan Ordusunun şəxsi heyətində mənəvi-psixoloji ruh yüksəkliyi yaradıb.

Azərbaycan beynəlxalq aləmdə güclü iqtisadiyyata malik bir ölkə kimi tanınmaqla yanaşı, həm də NATO standartlarına uyğunlaşmış modern bir ordusunun olması ilə də diqqəti cəlb edir. Bu gün Azərbaycan Ordusu dünyanın ən müasir silah-sursatı ilə təchiz olunub və dünyada 50 ən güclü ordu sırasındadır. Azərbaycan kimi gənc bir dövlətin ordusunun dünyanın ən güclü orduları sırasında olması asan başa gələn məsələ deyil və bu, hər bir azərbaycanlı üçün qürurvericidir.



Bu gün Azərbaycan bölgədə, dünya miqyasında öz gücünə arxalanan və öz hesabına, heç kimdən asılı olmayan ölkədir. Güclü iqtisadi inkişaf, gəlirlərin durmadan çoxalması hərbi xərclərin ilbəil artmasına imkan verir. Eyni zamanda, Azərbaycanda son illərdə yerli istehsal da təşkil edilmişdir. Müdafiə Sənayesi Nazirliyi hərbi tələbatın mühüm hissəsini istehsal edir. 2005-ci ildən bu günə qədər Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 1300-dən çox adda hərbi təyinatlı məhsul istehsal olunur.

Ordumuzun hərbi-texniki və döyüş hazırlığının yüksək səviyyədə olduğunu son dövrlərdə qazanılan hərbi uğurlar da aydın surətdə göstərir: Azərbaycan Ordusunun qüdrəti gündən-günə artır, qələbələr, nailiyyətlər bir-birini əvəzləyir. Ordumuzun Aprel döyüşlərində qazandığı qələbə, eləcə də 2018-ci ildə həyata keçirdiyi uğurlu Naxçıvan əməliyyatı işğal altındakı torpaqlarımıza tam nəzarət etməyə imkan verir. Bu əməliyyat nəticəsində əldə edilmiş yüksəkliklər strateji xarakter daşıyır. Bu yüksəkliklər Azərbaycan Ordusuna Ermənistanı dağlıq Qarabağla birləşdirən yola tam nəzarət etmək imkanı yaradır. Aprel döyüşləri və Naxçıvan əməliyyatı bir daha göstərdi ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq və öz ərazi bütövlüyünü hərbi yolla bərpa etməyə qadirdir. Münaqişə ilə bağlı mövqeyimizdə möhkəm dayanmışıq və bir addım geri atmayacağıq. Ermənistanın müstəqillik tarixi prinsipcə rüsvayçılıq tarixidir və Ermənistanda diktatura hökm sürür. Əgər obyektiv təhlil aparsaq görərik ki, orada inkişaf perspektivləri yoxdur. Ermənistanda demoqrafik vəziyyət ildən-ilə pisləşir, təbii azalma müşahidə olunur, hətta təmas xəttini qorumaq üçün Ermənistan ordusunda canlı qüvvə çatışmır. Bütün sahələrdə də üstünlük bizim tərəfimizdədir. Biz bundan sonra da milli maraqlarımızı bütün vasitələrlə müdafiə edəcəyik və bununla bərabər bölgədə genişmiqyaslı əməkdaşlığın yaranması üçün səylərimizi göstərəcəyik. Bu genişmiqyaslı əməkdaşlığın əsas amili Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. İşğalçı Ermənistan bu gün terroru və faşizmi dövlət siyasəti səviyyəsinə qaldırıb və işğal etdiyi Azərbaycan torpaqlarını azad etmək istəmir. Hələ ki onların vaxtuzatma və beynəlxalq vasitəçiləri aldatmaq cəhdləri davam edir. Çox təəssüf hissi ilə deyə bilərik ki, bəzi beynəlxalq qurumlar onların qeyri-səmimi davranışına bir növ, göz yummaq istəyirlər. Açıq-aydın görünən danışıqları pozmaq cəhdlərinə, Ermənistan tərəfindən göstərilən bu cəhdlərə, elə bil ki, bəraət qazandırılır. Ermənistanda müxalif siyasətçi və jurnalist Mher Yeqizaryan həbsxanada etdiyi aclığın ardından vəfat etdi. Lakin beynəlxalq təşkilatlar buna reaksiya vermədilər. Ölkəmizdəki ən xırda olaya ifrat operativliklə neqativ münasibət bildirən beynəlxalq təşkilatlar bu hadisəyə də göz yumdular. Azərbaycanofobiyadan ilhamlanan bəzi təşkilatlar Ermənistanın beynəlxalq hüquq normalarına zidd hərəkətlərinə və işğal siyasətini davam etdirməsinə, insan hüquq və azadlıqlarının pozulmasına şərait yaradırlar. Beynəlxalq aləm heç olmasa öz qərarlarına hörmət etməlidir.

Ənvər Kərimov
Zaqatala Veteranlar Təşkilatının sədri

# Azərbaycan gənci hər an Vətənin müdafiəsinə hazırdır

Azərbaycan gəncləri Vətən qarşısında vətəndaşlıq vəzifələrini layiqincə başa düşür və ərazi bütövlüyümüzün qorunmasında, milli dövlət quruculuğunda fəal iştirak edirlər. İstər 2016-cı ilin aprelində cəbhənin Füzuli və Tərtər rayonları, istərsə də 2020-ci ilin iyulunda Tovuz rayonu istiqamətində gedən döyüşlər zamanı Azərbaycan gəncliyi bir daha Vətənin müdafiəsinə, düşmən tapdağı altında olan torpaqlarımızı azad etməyə hər an hazır olduğunu bir daha sübut etdi.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu fikirlər Bərdə Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilən “Vətənin müdafiəsinə hazırıq” adlı videokonfransda səsləndirilib.



Bərdə Rayon Gənclər və İdman İdarəsinin rəisi Hikmət Ələkbərli çıxışında vətənpərvərlik mövzusunun hər zaman gənclər siyasətinin əsas tərkib hissəsi olduğunu bildirib. Gənclərimizə vətənpərvərlik tərbiyəsi hisslərinin aşılamaq üçün belə tədbirlərin əhəmiyyətini yüksək qiymətləndirib.

Qarabağ Müharibəsi Veteranları, Əlilləri və Şəhid Ailələri İctimai Birliyinin rayon şöbəsinin sədri Etibar xanım Hüseynova, Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin Bərdə Rayon Şöbəsinin rəis müavini Ceyhun Əsədov, İctimai Televiziyanın Qarabağ bölgə müxbiri Şöhrət Eyvazov, Bərdə Rayon İcra Hakimiyyətinin məsləhətçisi Səbuhi Qasımov, Gənclər və İdman İdarəsinin rəis müavini Aydın Qasımov və digər çıxış edənlər ölkəmizdə gənclərlə iş sahəsində aparılan siyasətdən, dövlətin ordu quruculuğu ilə bağlı gördüyü işlərdən danışıb, gənclərin vətənpərvər ruhda tərbiyəsinin vacibliyini vurğulayıblar. Bildirilib ki, iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən döyüşlərdə Azərbaycan ordusu düşmənin təxribatının qarşısını rəşadətlə aldı. Cəbhədə döyüşlər gedən zaman gənclərimiz ordumuza və əsgərlərimizə dəstək nümayiş etdirərək, hər an Vətənin müdafiəsinə hazır olduqlarını bildirdilər. Prezident İlham Əliyevin çağırışına uyğun olaraq, ən qısa zamanda on minlərlə gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etdi. Son hadisələr Azərbaycan ordusunun qüdrətini nümayiş etdirməklə yanaşı, ordu-xalq birliyini, gənclərimizin yüksək vətənpərvərliyini, onların torpaqlarımızın düşmən tapdağında qalması ilə heç zaman barışmayacağını bir daha göstərdi.

AZƏRBAYCAN VETERANI

## Hərbi hissədə Qurban bayramı münasibətilə tədbir keçirilib

Azərbaycan Milli Kulinariya Mərkəzinin, Azərbaycan Milli Kulinariya Assosiasiyasının və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə ön xətdə yerləşən "N" hərbi hissədə Qurban bayramı münasibətilə tədbir keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, müharibə veteranları, qazilər, şəhid ailələri, ictimaiyyət və qeyri-hökumət təşkilatlarının nümayəndələri, eləcə də "Mangal Steakhouse" restoranlar şəbəkəsinin rəhbərliyi iştirak edib.

Əvvəlcə ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı və suverenliyi uğrunda şəhid olmuş həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Tədbirdə çıxış edənlər şəxsi heyəti Qurban bayramı münasibətilə təbrik edib, Azərbaycan Ordusunun xalqımızın qürur mənbəyi, güvən yeri olduğunu bir daha diqqətə çatdıraraq, Ali Baş Komandanımızın rəhbərliyi ilə tezliklə işğaldan azad olunacaq torpaqlarımızda qurbanlar kəsilməsini arzulayıblar.



Əsgərlərə qələbə əzmi diləyən qonaqlar xalqın mənəvi dəstəyinin daim onlarla olduğunu bildirərək, hər zaman güclü dövlətimiz və qüdrətli ordumuzla fəxr etdiklərini vurğulayıblar. Otuza yaxın dünya şöhrətli aşpaz kəsilən qurban ətindən şəxsi heyət üçün milli mətbəximizin gözəl təamlarından hazırlayıblar.

Məşhur kulinarlar bayram süfrəsini hazırladıqdan sonra ordu aşpazlarına ustad dərsləri verib və hərbi hissənin kitabxanasına kulinariya kitabları da hədiyyə ediblər.

Şəxsi heyət üçün hazırlanmış bayram süfrəsində birlikdə nahar edildikdən sonra hərbi hissənin rəhbərliyi adından tədbirin yüksək səviyyədə təşkilinə görə peşəkar aşpazlara fəxri fərmanlar təqdim olunub.

## "Azərbaycan Böyük Vətən müharibəsi illərində" kitabı işıq üzü görüb




Bu günlərdə Rusiyada, Kursk şəhərində "Azərbaycan Böyük Vətən müharibəsi illərində" kitabı nəşr olunub.

AZƏRTAC xəbər verir ki, kitabın çapında məqsəd Rusiyada diaspor fəaliyyəti göstərən həmvətənlərimiz üçün mühüm köməkçi vəsaitin hazırlanmasından ibarətdir.

Kitabın nəşr olunmasının təşəbbüskarı və müəlliflərindən biri Kursk vilayətinin Azərbaycan diasporasının rəhbəri Qasım Kərimovdur. Kitabda geniş oxucu kütləsinə məlum olmayan çox sayda əhəmiyyətli materiallar toplanıb. Kitab, müəlliflərdən biri, tanınmış azərbaycanlı tarixçi alim, tarix elmləri doktoru Vəfa Quliyevanın rəhbərliyi altında, bir qrup tanınmış mütəxəssis tərəfindən hazırlanıb. Nəşrdə bir sıra mühüm, etibarlı mənbələrdən istifadə edilib. Burada Sovet İttifaqı qəhrəmanları, bu müharibədə ölümdirim mübarizəsi aparanlarla yanaşı, Azərbaycanda arxa cəbhədə görülən işlər barədə də geniş məlumat verilib. Qələbənin təmin olunmasında mühüm rol oynamış neftçilərimizin, alimlərimizin, kənd təsərrüfatında çalışanlarımızın, səhiyyə işçilərimizin və s. gərgin fəaliyyəti barədə ətraflı məlumatlar yer alıb. "Hər şey cəbhə üçün, hər şey Qələbə üçün" prinsipi ilə gecə-gündüz çalışanların əldə etdikləri nailiyyətlər konkret misallarla oxucuların diqqətinə çatdırılır.

Bundan əlavə kitabda bəzi ölkələrdə tarixi saxtalaşdıraraq, faşizmi təbliğ edən mənfur insanlar haqda da söhbət açılır və bunun yolverilməz olduğu əsaslandırılır.

Kitabda, eyni zamanda, Azərbaycanda müharibə veteranlarına göstərilən diqqət barədə də ətraflı məlumat verilir.

## Allah rəhmət eləsin

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Şestopova Mariya İvanovnanın vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Şevaldıva Yekaterina Alekseyevnanın vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Xıdırov Hüseyn Vəli oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Lisenko Maria Yemelyanovnanın vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Qasımov İsmayıl Qasım oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Mires Nataliya Vasilyevnanın vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Abdullayev Muxtar Abdulzaq oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Əmirov Balasan Həmid oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Yenikayeva Maxicamal Nizameddinovanın vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Qasımova Valentina Mixaylovna vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Şirinov Şirin Məhəmməd oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı İsgəndərov Babaxan Fətulla oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Şirəliyev Əlpənah İmanqulu oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Məmmədov Məmməd Süleyman oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Ələkbərov Ələkbər İman oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Əsədov Hüseyn Kərəm oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Ağayev Məhəmməd Amo oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı, Qazax Rayon Veteranlar Təşkilatının sədri Süleymanov Xanqulu Dursun oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Pirquluyev Məmədrasul Qayınbəy oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Əliyev Baba Həsən oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Əkbərov Əlibarat Bədəl oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Hüseynov Cəlil Məmmədrəhim oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Tağıyev Süleyman Ənnağı oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı İsmayılov Məsim Allahverdi oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Məmmədov Cəmil Oruc oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Eyvazov Rüstəm Həbib oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Məmmədov Məhəmməd Süleyman oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti İkinci Dünya Müharibəsi veteranı Qurbanov Qoçu Əhməd oğlunun vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə başsağlığı verir.**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*
*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:*** *Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:*** *1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:*** *Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu:*** *012 440-21-08*
***e-mail:*** *az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi*** *- 3486*
***Dövlət qeydiyyat tarixi*** *- 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 1 manat 20 qəpik*
*Tiraj: 1200*